Azərbaycan Dövlət Pedaqoji
Universitetinin Elmi Şurasının
14 sentyabr 2018-ci il tarixli iclasının
qərarı ilə (protokol № 1) təsdiq edilmişdir.

**Azərbaycan Dövlət Pedaqoji Universiteti**

# 2018-2021-ci illər üzrə
# STRATEJİ İNKİŞAF PLANI

**Bakı-2018**

**Azərbaycan Respublikası Təhsil Nazirliyi**

**Azərbaycan Dövlət Pedaqoji Universiteti**

# 2018-2021-ci illər üzrə
# STRATEJİ İNKİŞAF PLANI

**Bakı-2018**

**Ön söz**

Təhsil hər bir dövlətin strateji inkişafı ilə üzvü surətdə bağlı olan sahədir. Dünyanın bir çox inkişaf etmiş ölkələrinin mövcud inkişafının dayanıqlılığının kökündə elm və təhsilə ayırdığı yüksək diqqət dayanır. Bu gün dünyada ən vacib və strateji əhəmiyyətli dəyər yüksək ixtisaslı insan resurslarına və kapitalına malik olmaq dayanır. Azərbaycan Respublikası Hökuməti bu fikirləri qəbul edərək, müstəqilliyinin əsas dayaqlarından biri kimi milli təhsil sistemini inkişaf etdirməyi və dünyanın qabaqcıl ölkələri ilə rəqabət apara biləcək səviyyəyə qaldırmağı hədəfləyir. Bu prosesdə əsas məsələlərdən biri təhsilverənlərin, xüsusilə, məktəbəqədər, ibtidai və orta təhsildə daha peşəkar müəllimlərin çalışmasına nail olmaqdır. Bu missiya əsas etibarilə 2021-ci ildə yaranmasının 100 illiyini qeyd edəcək Azərbaycan Dövlət Pedaqoji Universitetinin üzərinə düşür.

Keçən dövr ərzində ADPU böyük tarixi inkişaf yolu keçmiş, Azərbyacanda təhsil sisteminin müəllim kadrlarla təmin olunmasında, pedaqogika elminin və pedaqoji fikrin daha da güclənməsində mühüm rol oynamışdır. Ölkədə ali təhsil sisteminin qurulmasında müstəsna rolu olan, keçmişdə ADPU-nun keçmişdə tabeliyində fəaliyyət göstərmiş bir çox fillialları hazırda ayrıca dövlət universitetləri kimi fəaliyyət göstərirlər.

Müstəqillik əldə edildikdən sonra təhsil sistemində baş verən bəzi çətinliklər, həyata keçirilən islahatlarla ayaqlaşmaq, müasir çağırışları cavablandırmada ADPU daha mühafizəkar davranmışdır. Həmçinin müəllim nüfuzunun cəmiyyətdə aşağı düşməsi, təhsilin bəzi hallarda ikinci plana keçməsi, müəllimlik ixtisaslarının abituriyentlər tərəfindən cəlbedici olmaması bu problemləri daha da dərinləşdirmişdir. İqtisadi çətinliklər istedadlı gənclərin daha az gəlir vəd edən elm sahəsindən özəl sektora yönəlməsi, elmi-pedaqoji kadrların daha da yaşlanmasına, gənc alimlərin sayının azalmasına səbəb olmuşdur. Həmçinin Azərbaycan Respublikası Prezidnetinin 26 noyabr 2015-ci il sərəncamı ilə Azərbaycan Müəllimlər İnstitutunun ADPU-ya qoşulması, onun filiallarının bəzilərinin bağlanması, mövcud olan fillalların işinin gücləndirilməsi zərurəti ADPU-nun ali məktəb olaraq qayğılarını bir qədər də artırmışdır.

Hazırda Bakıda dörd tədris korpusunda, Quba, Cəlilabad, Şamaxı, Şəki və Ağcabədi rayonlarında fəaliyyət göstərən beş filialda, universitetin nəzdində fəaliyyət göstərən Azərbaycan Dövlət Pedaqoji Kollecində ümumilikdə təhsilin orta ixtisas və ali təhsil səviyyələrini əhatə etməklə 19637 nəfər təhsil alır və onlara 1243 nəfər akademik və 1124 nəfər inzibati heyət xidmət göstərir.

Dövlətin uğurlu təhsil siyasəti, universitetdə kadr dəyişiklikləri nəticəsində son bir neçə ildə ADPU-da yeniləşmənin, təhsilin keyfiyyətinin daha da yaxşılaşmasının, işçi heyətin daha da optimallaşmasının, strukturun və infrastrukturun daha da təkmilləşməsinin şahidi oluruq. Amma daha uzunmüddətli və davamlı inkişafa nail olmaq üçün strateji inkişaf üzrə fəaliyyət planının olması zəruri olmuşdur.

Belə ki, ADPU-nun Elmi Şurasının 12 fevral 2015-ci il tarixli iclasının (protokol № 9) qərarı ilə 2015-2020-ci illər üçün Strateji İnkişaf Planı qəbul

edilmişdir. Həmçinin 2016-cı ilin ikinci yarısında Təhsil Nazirliyinin tapşırığı ilə ADPU üçün “Transformasiya üçün Yol Xəritəsi” və ADPU-da “Tədrisin Keyfiyyətinin Yüksəldilməsinə dair 10 illik Strateji İnkişaf Planı” adlı iki fərqli sənəd layihələri də hazırlanmışdır.

Qeyd olunan sənədlərin icrasını təmin etmək üçün ADPU-nun rəhbərliyi Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan 2020: Gələcəyə Baxış” İnkişaf Konsepsiyasını, Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nı, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli “Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında” adlı Fərmanı və Peşə təhsili üzrə Strateji Yol Xəritəsini və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 18 iyul tarixli 311 nömrəli qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi”ni əsas götürərək yerli və beynəlxalq ekspertlərin ADPU-da apardığı tədqiqatların nəticələrində verdiyi təklifləri nəzərə alaraq “ADPU-2021” Strateji İnkişaf Planını hazırlamışdır.

Bu plan yuxarıda qeyd olunanlar işığında ADPU-nun 100 yaşını qeyd edəcək 2021-ci ilədək olan dövrdə əsas inkişaf istiqamətlərini müəyyən edir və əsas hədəflərə yönəlməni, nəticəyə yönəlmiş idarəetmənin daha da gücləndirilməsinə xidmət edir.

# Azərbaycan Dövlət Pedaqoji Universitetinin

# Strateji Bəyannaməsi

**1. <u>ADPU-nun missiyası</u>**-Milli şüura malik, tədqiqatçı, məhsuldar, dərin düşüncəli, elmə, insan hüquqlarına hörmət edən, yaradıcı və innovativ, fərdlər-pedaqoqlar yetişdirmək; Təhsil, tərbiyə, araşdırma və s. digər elmi tədbirlər vasitəsilə cəmiyyətin texnoloji, sosial-iqtisadi və mədəni səviyyəsinin yüksəldilməsinə töhfə vermək.

**2. <u>ADPU-nun gələcəyə baxışı (Vizyonu)</u>–**Beynəlxalq standartlara cavab verən tədqiqatçı-müəllim hazırlığını peşə təhsilinin əsasları, ixtisas və innovasiyalar istiqamətində həyata keçirmək.

**3. <u>ADPU-nun əsas dəyərləri:</u>**

- **Bütövlük/ şəffaflıq**: ədalətli, vicdanlı və etik şəkildə davranmaq, universitetin bütün fəaliyyət və qərar qəbulu proseslərində güvən mədəniyyətini yaratmaq.
- **Mükəmməllik**: davamlı olaraq yüksək keyfiyyətli proqramlar, tədris, xidmət və təqaüd imkanları təqdim etməklə cəmiyyətin inkişafına xidmət göstərmək.
- **İnnovasiya:** fərdi yaradıcılıq və kreativliyi təşviq etməklə ideyaların inkişafını nəzərə almaq və dəstəkləmək, karyerada yüksəlmə və dəyişməyə, dinamikaya imkan verən mühit yaratmaq.
- **Cavabdehlik:** universitetə ayrılmış resursları səmərəli idarə etməklə akademik, proqram və maliyyə bütövlüyünü və dəyərini təmin etmək.
- **Ehtiram:** bütün fəaliyyət və qərar qəbulunda kollektiv olaraq hər kəsə insani, açıq və peşəkar yanaşmaq və müxtəlifliyə açıq olmaq.
- **Əməkdaşlıq**: komanda işi, korporativ mədəniyyət, iştirakçılıq, ideya və perspektivlərin müxtəlifliyinə dəyər verməklə ümumi məqsədlər uğrunda universitetin yerli (milli), regional və qlobal səviyyədə digər tərəfdaşlarla əməkdaşlığı.

**<u>4. ADPU-nun əsas hədəfləri:</u>**

- Tələbələr üçün universitet məmnunluğunu gücləndirmək (tələbə məmnunluğu sorğuları, müəllimlərin qiymətləndirilməsi kimi metodlar vasitəsilə)
- Tələbə nəticələrini yüksəltmək (universitetdən kənar imtahanlardan keçid səviyyəsi, işlə təmin olunma, ixtisasların qəbul yerlərinin dolma səviyyəsini və s. ölçməklə)
- Universitetə yüksək bacarıqlara malik tələbələri cəlb etmək (universitetə qəbul ballarının əsasında) və universitetə yüksək balla qəbul olunan tələbələrin bacarıqlarını tədqiqat-innovasiya istiqamətində inkişafına nail olmaq.

**5. <u>ADPU-nun şüarı:</u>** Ənənələrə sadiq, yeniliklərə açıq !

Azərbaycan Respublikası Təhsil Nazirliyi

Azərbaycan Dövlət Pedaqoji Universitetinin

**Loqosunun rəsmi izahı**

Bu loqo müasir Azərbaycan pedaqoji təhsilinin əsas çalarlarını və prinsiplərini özündə ehtiva edən, ADPU-nu təmsil etmək məqsədi ilə istifadə edilən qrafik işarələrdən ibarət olan rəsmi simvoldur.

Loqonun mərkəzindəki **açıq kitab** təhsilin fasiləsizliyini, daimiliyini və dünyaya açıq olduğunu ifadə edir.

Kitabı dövlət **bayrağımızın rənglərinə boyanmış aypara** əhatə edir. Bu rənglər loqoda Azərbaycan Respublikasının dövlət bayrağındakı mənasını təhsilimizdə millilik, dünyəvilik və əxlaqi-mənəvi dəyərlərə sadiqlik prinsiplərini əks etdirmək üçün istifadə olunub. Bu görüntü təhsilin gələcək nəsli Azərbaycançılıq məfkurəsində tərbiyə etmək kimi əsas vəzifəsinə eyham vurur.

Kitabın üstündə iki bərabəryanlı düzbucaqlı üçbucağın yaratdığı kvadrat təhsilin inteqrativliyini, tamlığını, varisliyini və davamlılığını əks etdirir. Üçbucaqlardan biri universitetin keçmişini, ikincisi gələcəyini, ikisi bir yerdə isə bu gününü əks etdirir.

Loqo isə təhsilin keyfiyyətlilik prinsipinə əsaslanan qüdrətini və gücünü əks etdirən **qızılı rəngli əsas dairə** ilə tamamlanır. Onun üzərində universitetin tam adı və yaranma tarixi olan 1921-ci il qeyd olunub. 1921 yazısının sağındakı və solundakı **səkkizguşəli ulduz** Azərbaycan Respublikasının dövlət bayrağındakı müvafiq simvolun mənasını daşıyır və loqonun mənalanmasını təmin edir.

## Azərbaycan Dövlət Pedaqoji Universitetinin
## 2018-2021-ci illər üzrə
## STRATEJİ İNKİŞAF PLANI

### Tədris və ümumi idarəçilik işləri üzrə

| № | Görülən işin məzmunu | İcra müddəti | Məsul struktur bölməsi | Qeyd |
|---|---|---|---|---|
| 1. | ADPU-da fəaliyyətinin nəticələrinə görə cavabdeh, şəffaf və səmərəli tənzimləmə mexanizmlərinə malik idarəetmə sisteminin formalaşdırılması və ADPU-nun idarə edilməsinin qabaqcıl beynəlxalq təcrübə əsasında yenidən qurulması. ADPU-da yerli və beynəlxalq təcrübə əsasında müasir idarəetmə sisteminin təkmlləşdirilməsi | Müntəzəm | Tədris Departamenti, Elm və innovasiyalar şöbəsi, Tədqiqat və inkişaf şöbəsi və Keyfiyyətin təminatı şöbəsi | Müvafiq sahə prorektorları ilə bilikdə |
| 2. | Maraqlı tərəflərin nümayəndələrinin iştirakı təmin edilməklə ADPU-da yeni idarəetmə modelinin qurulması və Himayədarlar Şurasının yaradılması | 2018-2020 | Rektorluq | Yeni nizamnaməyə əsasən |
| 3. | ADPU-da idarəetmənin təkmilləşdirilməsi çərçivəsində Ümumi Katibliyin yaradılması | May-dekabr 2018 | Rektorluq | |
| 4. | ADPU-nun təhsil-tədqiqat-innovasiya mərkəzinə çevrilməsini və universitetdə rəqabətqabiliyyətli mütəxəssis hazırlığını təmin edən yeni standartların tətbiqi | 2018-2019 | Tədris Departamenti, Elm və innovasiyalar şöbəsi, Magistratura və doktorantura şöbəsi, fakültə dekanlıqları və kafedralar | Tədris işləri üzrə prorektor, Elm və innovasiyalar üzrə prorektorla birlikdə |
| 5. | Növbəti tədris ilindən “Fiziki tərbiyə və çağırışaqədər hərbi hazırlıq” ixtisasında müəllim və tələbələrin uniformaya keçməsi | 2018-2019 | Fakültənin dekanlığı | Tədris işləri üzrə prorektor və İnzibati-təsərrüfat işləri üzrə prorektor |
| 6. | ADPU-da təhsilin keyfiyyətinin yüksəldilməsi üzrə Reytinq qiymətləndirmə sisteminin yaradılması | Sentyabr 2018 | Keyfiyyətin təminatı şöbəsi, Elm və innovasiyalar şöbəsi | ADPU-nun Keyfiyyət komissiyası |
| 7. | ADPU-da əmək bazarının tələbatına uyğun kadr hazırlığını (xüsusilə ümümtəhsil müəssisələrinin) təmin etmək məqsədi ilə tələbatın öyrənilməsi və ehtiyacların qarşılanması | Müntəzəm | Tədris Departamentinin Məzun koordinasiya və kariyera bölməsi | Keyfiyyətin təminatı və Elm və innovasiyalar şöbələri ilə birlikdə |

| | | | | |
|---|---|---|---|---|
| 8. | ADPU-da pedaqoji kadr hazırlığının monitorinqinin keçirilməsi, kadr potensialının mövcud vəziyyətinin araşdırılaraq nəticələrin təhlili | 2019 | Tədris Departamentinin Məzun koordinasiya və karyera bölməsi | Keyfiyyətin təminatı, Elm və innovasiyalar şöbəsi ilə birlikdə |
| 9. | ADPU-da mövcud olan tədris laboratoriyalarının işinin səmərəliliyinin artırılması | Müntəzəm | Tədris Departamentinin Metodiki təminat və akkreditasiya bölməsi | Fakültə dekanları və kafedra müdirləri ilə birlikdə |
| 10. | ADPU-da pedaqoji heyətin peşəkarlığının yüksəldilməsi və kompetensiyalılığının təmin edilməsi məqsədi ilə “Müasir təlim texnologiyaları” və peşə təliminin əsasları, ixtisas və innovasiyalar istiqamətində modul tipli ixtsasartırma təlimlərinin təşkili | Müntəzəm | Elm və innovasiyalar şöbəsi, Tədris Departamentinin Davamlı təhsil və təlim şöbəsi | Tədris Departamentinin Metodiki təminat və akkreditasiya bölməsi, Keyfiyyətin təminatı və Tədqiqat və inkişaf şöbələri ilə birlikdə |
| 11. | Müasir tələblərə cavab verən və ömür boyu təhsili təmin edən təhsil infrastrukturunun yaradılması, orta ümumtəhsil məktəblərinin müəllimlərinin öz işlərindən və tədrisdən ayrılmadan peşəkarlıq səviyyəsinin artırılması və o cümlədən peşə-ixtisas və təhsil məsələləri üzrə məsləhət xidmətləri göstərən innovativ modellərin (“Mentorluq” və s.) tətbiqi və ADPU-da ödənişli təlim kurslarının (təhsil menecmenti, layihə menecmenti, məktəb müdirləri və direktorları kursu, tyutorluq kursu, assentlik kursu və s.) təşkili | Müntəzəm | Elm və innovasiyalar şöbəsi, Davamlı təhsil və təlim şöbəsi | Elm və innovasiyalar üzrə prorektorluqla birlikdə |
| 12. | ADPU-da əməkdaşların maddi motivasiyasının yaxşılaşdırılması məqsədilə səriştə və nəticə əsaslı differensiallaşdırılmış rəqabətqabiliyyətli əmək haqqı və müxtəlif stimullaşdırıcı paketlər sisteminin yaradılması | Dekabr 2018 | Keyfiyyətin təminatı şöbəsi, Maliyyə şöbəsi, İnsan resursları şöbəsi | ADPU-nun Keyfiyyət komissiyası |
| 13. | ADPU-da Reytinq qiymətləndirməsinin mahiyyəti, müvafiq cədvəllərin doldurulması qaydaları və tələbələr arasında sorğuların keçirilməsi ilə bağlı hər fakültədə maarifləndirmə tədbirlərin həyata keçirilməsi | Oktyabr-noyabr 2018 | Keyfiyyətin təminatı şöbəsi | Dekanlıqlar və kafedralarla birlikdə |
| 14. | ADPU-da ayrı-ayrı ixtisas və fakültələr üzrə reytinqlərin hazırlanması üzrə müvafiq işlərin görülməsi | Dekabr 2018 | Keyfiyyətin təminatı şöbəsi | ADPU-nun Keyfiyyət komissiyası |
| 15. | ADPU-da mövcud olan ixtisasların və strukturların kodlaşdırma | Sentaybr- | Tədris Departamentinin | Elm və innovasiyalar |

| | | | | |
|---|---|---|---|---|
| | sistemini yaratmaq | dekabr 2018 | Metodiki təminat və akkreditasiya və Planlaşdırma və proqnozlaşdırma bölmələri | şöbəsi ilə birlikdə |
| 16. | ADPU-da və onun filiallarında tələbələrin bilik və bacarıqlarının qiymətləndirilməsinin qabaqcıl beynəlxalq təcrübəyə uyğunlaşdırılması | Müntəzəm | Tədris Departamentinin İmtahan və monitorinq şöbəsi | |
| 17. | Tam orta təhsil səviyyəsində təhsil müəssisələrinin müxtəlif istiqamətlər üzrə bölünməsi ilə əlaqədar olaraq ADPU-da kadr hazırlığı həyata keçirilən ixtisasların ekspertizası və gələcək ehtiyacları nəzərə alınaraq prioritet sahələr üzrə kadr hazırlığını təmin edəcək müvafiq dəyişikliklərin edilməsi | Müntəzəm | Tədris Departamentinin Məzun koordinasiya və karyera bölməsi və Metodiki təminat və akkreditasiya bölmələri | |
| 18. | Təhsil Nazirliyinin ümumtəhsil məktəblərinin müəllimlərinin işə qəbul üzrə müsabiqə nəticələrinin digər ali məktəblərlə müqayisəli təhlil edilməsi | Müntəzəm | Tədris Departamentinin Məzun koordinasiya və karyera bölməsi | |
| 19. | Müəllimlərin tədris keyfiyyətinin müəyyənləşdirilməsi üçün tələbə qiymətləndirmə sorğusunun keçirilməsi | Hər ilin mart və oktyabr aylarında | Keyfiyyətin təminatı şöbəsi | Fakültələrin dekanlığı ilə birlikdə |
| 20. | ADPU-nun 2018-2021-ci illər üzrə Strateji inkişaf Planının, eləcə də, hər tədris ili üzrə illik iş planının icrasına nəzarət və 2025-ci ilədək əsas hədəflərin, məqsədlərin müəyyən olunması | Müntəzəm | Keyfiyyətin təminatı şöbəsi | Əlaqədar struktur bölmələri ilə birlikdə |
| 21. | Kafedraların əsasnaməsinin hazırlanması və təsdiq üçün təqdim edilməsi | May-Dekabr 2018 | Tədris Departamentinin Metodiki təminat və akkreditasiya bölməsi | Baş hüquqşünasla birlikdə |
| 22. | Kafedraların iş planının hazırlanması və təsdiq üçün təqdim edilməsi | Hər ilin İyun ayında | Tədris Departamentinin Metodiki təminat və akkreditasiya bölməsi | |
| 23. | Bakalavriatura və magistratura səviyyələrində tədris olunan fənlərin siyahısının tərtib olunması və fənlərin kafedralar üzrə dəqiq bölgüsünün aparılması (yəni hansı fənnin tədrisi, rektorun hansı əmriylə hansı kafedraya həvalə olunmuşdur). | Sentyabr 2018 | Tədris Departamentinin Planlaşdırma və proqnozlaşdırma bölməsi, Magistratura və doktorantura şöbəsi | Fakültə dekanlıqları və kafedralarla birlikdə |

| | | | | |
|---|---|---|---|---|
| 24. | Kafedraların konkret hədəfləri və gələcək inkişaf planlarının hazırlanması (kafedranın inkişaf hədəfləri və onların əsas xüsusiyyətlərinin izahı) | Sentyabr 2018 | Tədris Departamentinin Metodiki təminat və akkreditasiya bölməsi, fakültə dekanlıqları və kafedralar | |
| 25. | Kafedrada tədris olunan fənlər arasında inteqrasiyaya nail olunması – müxtəlif fənlərin tədrisində müəyyən mövzuların təkrar olunmasının qarşısının alınması | 2018/2019 tədris ili ərzində | Tədris Departamentinin Metodiki təminat və akkreditasiya bölməsi, Magistratura və doktorantura şöbəsi, fakültə dekanlıqları və kafedralar | |
| 26. | Sillabusların və kafedrada tədris olunan hər bir fənn barədə məlumatın hazırlanması (fənnin əsas məzmunu – qısa təsviri) və veb səhifədə yerləşdirilməsi. | Hər semestrin əvvəlində | Fakültə dekanlıqları və kafedralar | İKT və Keyfiyyətin təminatı şöbəsi ilə birlikdə |
| 27. | Fənnin tədrisində bir müəllimdən asılılığın ortadan qaldırılması və bir fənnin bir neçə müəllim tərəfindən tədrisinin təşkili (Fənlərin alternativ tədrisi imkanlarının yaradılması) | Sentyabr 2018-2019 | Tədris Departamentinin Planlaşdırma və proqnozlaşdırma bölməsi, fakültə dekanlıqları və kafedralar | |
| 28. | Tədris olunan bütün fənlər üzrə yeni sillabusların tətbiqinin həyata keçirilməsi | Sentyabr 2018 | Tədris Departamentinin Metodiki təminat və akreditasiya bölməsi, fakültə dekanlıqları və kafedralar | |
| 29. | Kafedrada tədris olunan bütün fənlər üzrə mühazirə materiallarının hazırlanması və veb səhifədə (http://adpu.edu.az/moodle/) yerləşdirilməsi | 2018-2019 | Fakültə dekanlıqları və kafedralar | İKT və Keyfiyyətin təminatı şöbəsi ilə birlikdə |
| 30. | Dərs prosesində daha müasir və interaktiv təlim metodlarının, habelə informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin genişləndirilməsi tədbirləri | 2018-2019 | Tədris Departamenti, fakültə və kafedralar, Elm və innovasiyalar şöbəsi | İKT, Keyfiyyətin təminatı şöbəsi və İnzibati-təsərüffat şöbəsi ilə birlikdə |

| | | | | |
|---|---|---|---|---|
| 31. | Kafedranın kadr potensialının möhkəmləndirilməsi və kafedranın müəllim bankının formalaşdırılması | 2018-2019 | Fakültə dekanlıqları və kafedralar | Tədris Departamenti |
| 32. | Fakültənin əsasnaməsinin hazırlanması və təsdiq edilməsi | Sentyabr 2018 | Tədris Departamentinin Metodiki təminat və akkreditasiya bölməsi, fakültə dekanlıqları dekanları | Baş hüquqşünasla birlikdə |
| 33. | Fakültələrin Elmi şuraları haqqında əsasnamənin hazırlanması və təsdiq edilməsi | Sentyabr 2018 | Tədris Departamentinin Metodiki təminat və akkreditasiya bölməsi, fakültə dekanları | Baş hüquqşünasla birlikdə |
| 34. | Fakültənin iş planının hazırlanması və təsdiq üçün təqdim edilməsi | Sentyabr 2018 | Tədris Departamentinin Metodiki təminat və akkreditasiya bölməsi, fakültə dekanları | Rektorluq |
| 35. | Fakültənin Elmi Şurasının iş planının hazırlanması və təsdiq üçün təqdim edilməsi | Hər ilin iyun ayı | Tədris Departamentinin Metodiki təminat və akkreditasiya bölməsi, fakültə dekanları | Rektorluq |
| 36. | Fakültənin təşkilati sturukturunun hazırlanması və veb səhifədə yerləşdirilməsi | 2018-2019 | Fakültə dekanlığı | İKT mərkəzi ilə birlikdə |
| 37. | Fakültənin strukturunun və onun idarə olunması sisteminin müasir tələblərə cavab verə biləcək şəkildə inkişaf etdirilməsi barədə təkliflərin hazırlanması | 2018-2019 | Tədris Departamenti və Fakültə dekanlıqları | |
| 38. | Fakültənin missiyası, məramı və hədəflərinin müəyyən olunması | Sentyabr 2018 | Tədris Departamenti və Fakültə dekanlıqları | |
| 39. | Fakültələrin loqolarının hazırlanması | Sentyabr-dekabr 2018 | Tədris Departamenti və Fakültə dekanlıqları | |
| 40. | Hər semestrin sonunda fakültə bülleteninin hazırlanması | 2018-2019 | Fakültə dekanlıqları | Tədris Departamenti və Nəşriyyat şöbəsi ilə birlikdə |
| 41. | Tələbələrin zəruri məlumatlarla (təhsil pillələri üzrə tələblər, təhsil | 2018-2019 | Fakültə dekanlıqları | Tədris Departamenti |

| | | | | |
|---|---|---|---|---|
| | proqramları haqqında məlumatlar, tədris nailiyyətlərinin qiymətləndirmə prosedurları, ali təhsil müəssisəsinin daxili nizam-intizam qaydaları, təhsil haqqının ödənilməsi qaydaları və s.) təmin edilməsi | | | |
| 42. | Fakültədə olan tədris köməkçi heyətin işinin təşkili və onların fəaliyyətinə nəzarətin həyata keçirilməsi | Hər tədris illində | Tədris Departamenti | Fakültələrin dekanlıqları ilə birlikdə |
| 43. | Birinci tədris ilinə qəbul olunmuş tələbələrlə işin təşkili və orientasiya proqramının hazırlanması | Sentyabr 2018 | Tədris Departamentinin Məzun koordinasiya və karyera bölməsi və fakültə dekanları | |
| 44. | Fakültədə tədris edilən fənlərin mənimsənilməsinin mövcud vəziyyətinin müəyyən edilməsi üçün monitorinqlərin aparılması | Mütamadi | Tədris Departamentinin İmtahan və monitorinq şöbəsi | Keyfiyyət təminatı şöbəsi ilə birlikdə |
| 45. | Fakültələrin universitetin Beynəlxalq əlaqələr şöbəsi ilə əməkdaşlığının artırılması və tələbələrin akademik mobilliyinin təmin edilməsinin (tələbə mübadiləsi, tələbələrin xaricdə təhsil və təcrübə proqramlarında iştirakı, fakültədə xarici ölkə vətəndaşlarının təhsil alması) və beynəlxalq tələbə mübadiləsi proqramları çərçivəsində tələbələrin xarici ölkələrin nüfuzlu ali məktəblərində təhsil almalarının təşkili | 2018-2019 | Beynəlxalq əlaqələr üzrə prorektorluq | Fakültə dekanlıqları, Beynəlxalq əlaqələr şöbəsi, Tədqiqat və inkişaf şöbəsi ilə birlikdə |
| 46. | Fakültədə mövcud olan hər bir ixtisas barədə arayışın hazırlanması, oxşar fənlərin tədrisdən çıxarılması ilə bağlı təkliflərin təqdim edilməsi | 2018-2019 | Fakültə dekanlıqları | Tədris Departamenti |
| 47. | Fakültədə mövcud olan konkret hər bir ixtisas üzrə ayrı-ayrılıqda dünyanın beş ən nüfuzlu ali məktəblərinin müəyyən olunması, o ali məktəbdə qeyd olunan ixtisas üzrə tədrisin təşkili, ixtisasın tədris planı barədə arayışın hazırlanması | 2018-2019 | Fakültə dekanlıqları | Tədris Departamenti, Beynəlxalq əlaqələr şöbəsi, Tədqiqat və inkişaf şöbəsi ilə birlikdə |
| 48. | Fakültənin bakalavr və magistr ixtisasları üzrə nüfuzlu ali məktəblərlə ikili (Dual sistem) diplom proqramının tətbiqi barədə təklif və layihələrin hazırlanması | 2018-2019 | Beynəlxalq əlaqələr üzrə prorektorluq | Fakültə dekanlıqları və Elm və innovasiyalar şöbəsi ilə birgə |
| 49. | Fakültələrin nüfuzlu ali məktəblərin eyni profilli fakültələri və sənayenin qabaqcıl müəssisə və təşkilatları ilə əməkdaşlığının | 2018-2019 | Fakültə dekanlıqları | Tədris Departamenti və Elm və innovasiyalar |

| | | | | |
|---|---|---|---|---|
| | qurulması işinin təşkili və konkret əməkdaşlıq memorandumlarının imzalanması üçün təkliflərin hazırlanması | | | şöbəsi ilə birlikdə |
| 50. | Fakültənin ixtisasların potensialı üzrə informasiya göstəricilərinin hazırlanması və təqdim edilməsi və fakültənin profilinə uyğun yeni ixtisasların açılması barədə konkret təkliflərin təqdim edilməsi | 2018-2019 | Fakültə dekanlıqları | Tədris Departamentinin Məzun koordinasiya və karyera bölməsi və Tədqiqat və inkişaf şöbəsi ilə birlikdə |
| 51. | Ümumfakültə elmi-metodiki seminarlarının, habelə kafedralararası müşavirələrin və elmi-metodiki müzakirələrin keçirilməsinin təmin edilməsi və bu sahədə konkret iş planının hazırlanması | 2018-2019 | Fakültə dekanlıqları | Tədris Departamenti ilə birlikdə |
| 52. | Fakültə tələbə təşkilatlarının (TEC, TGT və THK) işinin təşkili və gücləndirilməsi | 2018-2019 | Fakültə dekanlıqları | Elm və innovasiyalar şöbəsi, üniversitetin müvafiq tələbə təşkilatları ilə birlikdə |
| 53. | Fakültənin strateji inkişaf istiqamətlərinin müəyyən edilməsi | 2018-2019 | Fakültə dekanlıqları | Tədris Departamenti və Elm və innovasiyalar şöbəsi ilə birlikdə |
| 54. | Fakültənin kataloqu, fakültənin və onun kafedralarının bukletləri və müxtəlif reklam xarakterli çap materiallarının hazırlanması | 2018-2019 | Fakültə dekanlıqları | Tədris Departamenti ilə birlikdə |
| 55. | Fakültənin idarə olunmasında informasiya və kommunikasiya texnologiyalarından istifadə edilməsi və ADPU-nun internet səhifəsində fakültəyə aid məlumatların yenilənməsi və təkmilləşdirilməsi | 2018-2019 | Fakültə dekanlıqları | İKT mərkəzi ilə birlikdə |
| 56. | Tanınmış şəxslərin, alim və mütəxəssislərin iştirakı ilə elmi seminarların keçirilməsi və bu seminarlara tələbələrin daha da geniş cəlb edilməsi tədbirləri. Bu tədbirlərin qrafikinin hazırlanıb təqdim edilməsi | 2018-2019 | Fakültə dekanlıqları | Tədris Departamenti ilə birlikdə |
| 57. | Fakültədə kafedralararası müşavirələrin, elmi-metodiki müzakirələrin və konfransların keçirilməsinin təşkili | 2018-2019 | Fakültə dekanlıqları | Tədris Departamenti ilə birlikdə |
| 58. | Fakültələrin kafedralarının müvafiq maddi-texniki, tədris-metodiki və elmi-texnoloji avadanlıqlarla təchizatı barədə təkliflərin hazırlanıb təqdim edilməsi | 2018-2019 | Fakültə dekanlıqları | İqtisadi və inzibati işlər üzrə prorektorluqla birlikdə |

| | | | | |
|---|---|---|---|---|
| 59. | Fakültədə tələbələrin tərbiyə işinin və müxtəlif sosial tədbirlərin (müxtəlif müsabiqələrin, sərgilərin və intellektual oyunların) təşkili | Müntəzəm | Fakültə dekanlıqları | Sosial və humanitar məsələəlr üzrə prorektoqluqla birlikdə |
| 60. | Bütün ixtisasların adlarının, dövlət təhsil standartlarının və tədris planlarının beynəlxalq tələblərə uyğunlaşdırılması | 2018-2019 | Fakültə dekanlıqları | Tədris Departamenti ilə birlikdə |
| 61. | Bakalavriatura, magistratura və doktorantura səviyyələri üzrə fakültələr və ADPU üzrə Akademik Təqvimin tərtib olunması və tətbiqi | Hər ilin iyun ayında | Fakültə dekanlıqları, Magistratura və doktorantura şöbəsi | Tədris Departamenti ilə birlikdə |
| 62. | Tələbələrin fərdi planlarının (xüsusilə akademik borcların və kəsirlərin ilk növbədə nəzərə alınması) tərtib olunmasına nəzarət mexanizminin işlənib hazırlanması | Müntəzəm | Fakültə dekanlıqları | Tədris Departamenti ilə birlikdə |
| 63. | Hər fakültə və ona bağlı kafedraların məlumatlarını ADPU-nun internet səhifəsində yerləşdirilməsini təmin etmək üçün hər bir dekanlıqdan sosial şəbəkələrə məsul şəxsin müəyyən edilməsi | Müntəzəm | Fakültə dekanlıqları | İKT mərkəzi ilə birlikdə |
| 64. | 2018/2019-cu tədris ilindən etibarən hər bir struktur vahidinin və universitetin ümumi iş planlarının tərtib olunub təsdiqlənməsi | Hər ilin iyul-avqust aylarında | müvafiq prorektorluqların rəhbərliyi altında struktur vahidlərinin rəhbərləri | Rektorluq |
| 65. | Dekanlıqların təchizat və işçilərlə (dekan, müavin, tyutor, operator və dispeçer) təminatı | Müntəzəm | Fakültə dekanlıqları və Magistratura və doktorantura şöbəsi | Tədris Departamenti və İnsan resursları şöbəsi ilə birlikdə |
| 66. | ADPU-nun sentyabrda növbəti tədris ili üçün proqnoz dərs yükünün təsdiq olunması və kafedralar üzrə dördlü imza ilə müəllimlərin fərdi dərs yükünün təsdiq olunması, tədris ilinin sonunda dərs yüklərinin yoxlanılıb, dəqiqləşdirilmiş (icra edilmiş) dərs yükünün təsdiq edilməsi | Proqnoz-sentyabr Dəqiqləşdirmə iyun ayında təsdiq edilməli | Tədris Departamenti | Fakültə dekanlıqları və Magistratura və doktorantura şöbəsi və Maliyyə şöbəsi ilə birlikdə |
| 67. | Təhsil haqlarının qeydiyyatı, xüsusi kitab üzrə Maliyyə şöbəsi ilə əlaqələndirilməsi | Müntəzəm | Dekanlıqlar, Magistratura və doktorantura şöbəsi | Maliyyə şöbəsi ilə birlikdə |
| 68. | Yekun dövlət və semestr imtahanlarına hazırlıq, icmal mühazirələr və akademik borcu olan tələbələrlə işin qurulması | Müntəzəm | Fakültə dekanlıqları, Magistratura və doktorantura şöbəsi | Tədris Departamenti ilə birlikdə |
| 69. | Dərs cədvəllərinin icrasına nəzarətin təşkili, müəllimlərin dərs | Müntəzəm | Tədris Departamentin | Fakültə dekanlıqları və |

| | | | | |
|---|---|---|---|---|
| | davamiyyəti ilə bağlı həftəlik nəzarət məlumatlarının təqdim olunması | | İmtahan və monitorinq şöbəsi | Magistratura və doktorantura şöbəsi ilə birlikdə |
| 70. | Buraxılış işlərinin və magistr işlərinin mövzularının Tədris-Metodiki Şurada müzakirəsi və təsdiqi | Müntəzəm | Tədris Departamenti | Fakültə dekanlıqları və Magistratura və doktorantura şöbəsi ilə birlikdə |
| 71. | Tədris prosesinin modul prinsipi ilə təşkilinin müzakirə edilməsi və ayrı-ayrı ixtisaslarda tədrisin modul sistemi üzrə qurulması və ya tədris planının modul prinsipinə əsaslanan formasının tərtibi barədə təkliflərin təqdim olunması | Müntəzəm | Tədris Departamenti, Magistratura və doktorantura şöbəsi | Fakültə dekanlıqları və Magistratura və doktorantura şöbəsi ilə birlikdə |
| 72. | Dərs jurnallarının semestr başlayandan 2 həftə keçən kimi bağlanması və möhürlənməsi. Semestrin sonunda jurnalların yoxlanması və arayışın tərtib olunması | Müntəzəm | Tədris Departamentinin İmtahan və monitorinq şöbəsi | Fakültə dekanlıqları və Magistratura və doktorantura şöbəsi ilə birlikdə |
| 73. | Magistr məzunların işə cəlb edilməsi, uğurlu magistr məzunlarının ADPU-nun nümayəndəsi olaraq xaricdə məqsədli doktoranturaya təhsil almağa göndərilməsi | Müntəzəm | Tədris Departamenti, Magistratura və doktoranrura şöbəsi | Fakültə dekanlıqları və Magistratura və doktorantura şöbəsi ilə birlikdə |
| 74. | Tələbələrin pedaqoji təcrübəsinin müasir dövrün tələblərinə uyğunlaşdırılması | Müntəzəm | Tədris Departamenti, Elm və innovasiyalar şöbəsi | Fakültə dekanlıqları, Magistratura və doktorantura şöbəsi ilə birlikdə |
| 75. | Kollec, filiallar və məktəblə əməkdaşlıq məsələsi haqqında yazılı reqlamentin (prosedurların) müəyyən olunması | Sentyabr 2018 | Tədris Departamenti | Baş hüquqşünasla birlikdə |
| 76. | Dekanlığın üç işi (tələbələrlə iş, kafedralarla/müəllimlərlə iş, sənədlərlə iş) eyni vaxtda görməsi ilə bağlı bacarıqlarının gücləndirilməsi ilə bağlı təlimlərinin təşkili | Müntəzəm | Tədris Departamenti | Ümumi şöbə və Baş hüquqşünasla birlikdə |
| 77. | Kafedraların və fakültələrin pasportunun unifikasiyası və ADPU-nun pasportunun hazırlanması | Hər tədris ili başlayanda | Fakültə dekanlıqları ilə birlikdə | Tədris Departamenti |
| 78. | Tədris ilinin sonunda tədris strukturlarının illik hesabatının hazırlanması və çapı | Hər tədris ilinin | Tədris Departamenti | Fakültə dekanlıqları ilə birlikdə |

| | | | | |
|---|---|---|---|---|
| | | sonunda | | |
| 79. | ADPU-nun son onillik üzrə Dövlət İmtahan Mərkəzinin (DİM) nəticələrinə uyğun reytinqini, qəbul nəticələrini, eyni ixtisas üzrə kadr hazırlayan ali məktəblərlə müqayisəsinin aparılması və müvafiq planın hazırlaması | Sentyabr 2018 | Tədris Departamentinin Məzun koordinasiya və karyera bölməsi | Keyfiyyətin təminatı şöbəsi ilə birlikdə |
| 80. | Ölkədə keçirilən müxtəlif tədbirlərdə ADPU tələbələrinin könüllü olaraq iştirakını gücləndirmək və “Təhsil Könüllüləri” İctimai Birliyini təsis etmək | 2018-2019 tədris ilində | Sosial və humanitar məsələlər üzrə prorektorluq | Tələbə və digər ictimai təşklilatlarla birlikdə |
| 81. | ADPU-nun hər il göstəricilərin necə dəyişdiyini yoxlamaq (tələbə sayı, müəllim sayı, təshil haqqı, DİM reytinqi, kompyuterlərin sayı, proyektorların sayı, müəllimlərin işə qəbulu imtahanlarının nəticələri, elmi adların, dosent və professorların sayı, kitabxananın son 5 ildə aldığı kitabların sayı və s.) | Hər tədris ilin əvvəlində | Müvafiq prorektorluqlar | Keyfiyyətin təminatı şöbəsi ilə birlikdə |
| 82. | Tədris korpuslarını, humanitar, dəqiq elmlər, yaradıcılıq və s., bu kimi xüsusiyyətlə görə bölmək | 2018-2019 tədris ilində | Tədris Departamenti | |
| 83. | Hər fakültə üzrə hər il bir tələbəni “tələbə dekan” seçmək | 2018-2019 tədris ilində | Tədris Departamenti | Fakültə dekanlıqları ilə birlikdə |
| 84. | İctimai əsaslarla kafedralarda müdir müavinlərinin və fənn komissiyası sədrlərinin seçilməsi | 2018-2019 tədris ilində | Tədris Departamenti | Fakültə dekanlıqları ilə birlikdə |
| 85. | Hər fakültə, filliallar, o cümlədən ixtisaslar üzrə baza təcrübə məktəblərini müəyyən etmək, onlarla görüş keçirmək, müqavilə imzalamaq və o məktəblərə universitet olaraq dəstək olmaq | 2018-2019 tədris ilində | Tədris Departamenti | Fakültə dekanlıqları ilə birlikdə |
| 86. | Daimi əsaslarla fəaliyyət göstərəcək “Pedaqoji Forumun” təşkili | Müntəzəm | Tədris Departamenti | Rektorluqla birlikdə |
| 87. | ADPU-da çap işləri (fənn proqramı, metodik vəsait, dərs vəsaiti və dərsliklərin) ilə bağlı strategiyanın və planın hazırlanıb qəbul olunması. Bəzi beynəlmiləl fənlərdə xarici dərsliklərin alınıb istifadəsinə nail olunması | 2018-2019 tədris ilində | Tədris Departamenti, Elm və innovasiya şöbəsi ilə birlikdə | Fakültə dekanlıqları, kafedralar, Kitabxana informasiya mərkəzi və Nəşriyyat şöbəsi ilə birlikdə |
| 88. | Tələbələrə verilmiş sərbəst işlərin qiymətləndirilməsi işinə ciddi nəzarətin təşkili | 2018-2019 tədris ilində | Tədris Departamentinin İmtahan və monitorinq şöbəsi | Fakültə dekanlıqları ilə birlikdə |

| | | | | |
|---|---|---|---|---|
| 89. | ATİS vasitəsilə ADPU-nun elektron universitet sisteminin yaradılması | Sentaybr 2018 | Elm və innovasyalar şöbəsi, Tədris Departamentinin Elektron qeydiyyat bölməsi | Fakültə dekanlıqları, İKT şöbəsi və E-universitet komissiyası ilə birlikdə |
| 90. | Əlavə təhsil üzrə tədricən distant təhsilə keçilməsi və tədrisin modullaşdırılması | 2018-2019 tədris ilində | Davamlı təhsil və təlim şöbəsi | İKT şöbəsi ilə birlikdə |
| 91. | ADPU-nun özəl və dövlət məktəbləri, liseyləri, gimnaziyaları, təmayül məktəbləri və kollecləri ilə əlaqələrin fakültələr üzrə genişləndirilməsi | 2018-2019 tədris ilində | Tədris Departamenti | Fakültə dekanlıqları ilə birlikdə |
| 92. | Tədris-Metodiki Şuranın təhsil standartları Komissiyasının təşkili | 2018-2019 tədris ilində | Tədris Departamenti | Fakültə dekanlıqları ilə birlikdə |
| 93. | Laboratoriyalardan səmərəli istifadənin təşkili. İT dərslərində tətbiqi əyani vasitələrdən istifadənin gücləndirilməsi. Riyaziyyat və İT dərslərinin tədris keyfiyyətinin gücləndirilməsi tədbirləri | 2018-2019 tədris ilində | Riyaziyyat və informatika fakültəsi | Tədris Departamenti ilə birlikdə |
| 94. | Müəllimlərin (xarici dil və İT), tədris yardımçı heyətin attestasiyası və laborantlara təlimin (ofis ve kargüzarlıq mövzusunda) təşkili | Müntəzəm | Attestasiya Komissiyası | Müvafiq strukturlarla birlikdə |
| 95. | Keyfiyyət Komissiyasının (treninq, nəzarət, açıq dərslərdə iştirak və imtahanlara nəzarət) yaradılması | 2018-2019 tədris ilində | Tədris Departamenti və Keyfiyyətin təminatı şöbəsi | Fakültə dekanlıqları ilə birlikdə |
| 96. | ADPU-da “Texnologiya və mühəndislik” fakültəsinin yaradılması | 2020-2021 | Tədris Departamenti | Rektorluqla birlikdə |
| 97. | Xarici dil müəllimlərinin peşə-ixtisas hazırlığını yüksəltmək üçün əlavə olaraq ingilis dili (TKT və IELTS 6.), alman dili (TEST DAF 6.) və fransız dili (TCF C2) müəllimlərinin beynəlxalq sertifikatlaşdırılması | 2018-2019 tədris ilində | Tədris Departamenti | Tədqiqat və inkişaf şöbəsi ilə birlikdə |
| 98. | Keyfiyyətin artmasına dair xarici təcrübəyə əsasən təkliflərin verilməsi, ADPU-nun (o cümlədən kollec və filialların) mövcud strateji planın icrasının nəzarətdə saxlanılması, illik hesabatları alması, ADPU Katoloqunun, Tələbələr üçün yaddaş kitabçasının hazırlanıb çap edilməsi | Müntəzəm | Keyfiyyətin təminatı şöbəsi | |
| 99. | Məktəblərdə şagirdlərlə görüşlərin təşkili, şagirdlərin ADPU-ya tanışlıq turlarının təşkili | Hər ilin aprel-may | Tədris Departamenti | |

| | | | | |
|---|---|---|---|---|
| | | aylarında | | |
| 100. | ADPU-nun I kurs tələbələri üçün yaddaş kitabçasının hazırlanması və çapı | Hər ilin avqust ayında | Tədris Departamenti | İKT şöbəsi ilə birlikdə |
| 101. | Tələbələrlə fərdi qaydada işin aparılması, “əlaçı” və “kredit borcları olan tələbələrlə” işin aparılması | Hər imtahan sessiyasından sonrakı ay ərzində | Fakültə dekanlıqları | |
| 102. | Mərtəbələrə görə növbətçilik sistemi və onun əmrləşdirilməsi | Hər semestr başlamadan öncə | Tədris departamenti | İnzibati-təsərrüfat şöbəsi ilə birlikdə |

## Elm və innovasiyalar sahəsi üzrə

| № | Görülən işin məzmunu | İcra müddəti | Məsul struktur bölməsi | Qeyd |
|---|---|---|---|---|
| 1. | ADPU-nun beş illik elmi-tədqiqat işlərinin planını hazırlayıb, təsdiq üçün təqdim edilməsi | Noyabr 2018 | Elm və innovasiyalar şöbəsi, Magistratura və doktorantura şöbəsi | Elm və innovasiyalar üzrə prorektorluq |
| 2. | Kafedralarda illik elmi tədqiqat hesabatlarının toplanılması və illik elmi-tədqiqat nəticələrinə həsr edilmiş konfransın keçirilməsi, nəticələrin çap olunması | Hər təqvim ilinin dekabr ayında | Elm və innovasiyalar şöbəsi, Nəşriyyat şöbəsi | Elm və innovasiyalar üzrə prorektorluq, fakültə dekanlıqları ilə birlikdə |
| 3. | Elmi tədqiqatların perspektiv istiqamətlərinin hazırlanması və həyata keçirilməsinin təşkili | Müntəzəm | Elm və innovasiyalar şöbəsi, fakültə dekanlıqları və kafedralar | Elm və innovasiyalar üzrə prorektorluq, fakültə dekanlıqları birlikdə |
| 4. | Elmi tədqiqat işlərinin planlarını və elmi işlərin tematik planlarının hazırlanmasının təşkili | Müntəzəm | Elm və innovasiyalar şöbəsi | Elm və innovasiyalar üzrə prorektorluq, fakültə dekanlıqları ilə birlikdə |
| 5. | Redaksiya-nəşriyyat və elmi fəaliyyətin səmərəli təşkili | Müntəzəm | Elm və innovasiyalar şöbəsi | Elm və innovasiyalar üzrə prorektorluq, Nəşriyyat şöbəsi ilə |

| | | | | |
|---|---|---|---|---|
| | | | | birlikdə |
| 6. | Tədris prosesində elmi, elmi-pedaqoji və təhsil fəaliyyətinin inteqrasiyasının təmini | Müntəzəm | Elm və innovasiyalar şöbəsi, Tədris Departamenti, fakültə və kafedralar | Elm və innovasiyalar üzrə prorektorluq, fakültə dekanlıqları ilə birlikdə |
| 7. | Elmi tədqiqat işlərinin maliyyələşdirilməsinə dair təkliflərin hazırlanması | Müntəzəm | Elm və innovasiyalar şöbəsi, kafedralar | Elm və innovasiyalar üzrə prorektorluq, Maliyyə şöbəsi ilə birlikdə |
| 8. | Müəyyən olunmuş qaydada elmi tədqiqat işlərinə dair hesabatların hazırlanması və təqdim edilməsi | Hər təqvim ilinin dekabr ayı | Elm və innovasiyalar şöbəsi, Magistratura və doktorantura şöbəsi, fakültə və kafedralar | Elm və innovasiyalar üzrə prorektorluqla birlikdə |
| 9. | Dissertasiya Şurasının səmərəli fəaliyyətinin təşkili, həmçinin yeni dissertasiya şuralarının yaradılması istiqamətində işlərin aparılması | Müntəzəm | Elm və innovasiyalar şöbəsi, Magistratura və doktorantura şöbəsi, Dissertasiya şuraları | Elm və innovasiyalar üzrə prorektorluqla birlikdə |
| 10. | Təhsil Nazirliyinin müvafiq struktur bölmələri ilə qarşılıqlı fəaliyyətin həyata keçirilməsi | Müntəzəm | Elm və innovasiyalar şöbəsi, Tədris Departamenti | Elm və innovasiyalar üzrə və Tədris işləri üzrə prorektorluqla birlikdə |
| 11. | Tədqiqatçıların və ixtiraçıların müəlliflik hüququ və intellektual mülkiyyətinin müdafiəsi üçün şərait yaradılması | Müntəzəm | Elm və innovasiyalar şöbəsi | Elm və innovasiyalar üzrə prorektorluqla birlikdə |
| 12. | Universitetdaxili elmi müsabiqələrin (tələbələr üçün olimpiadaların, ilin alimi (tədqiqatçısı), ilin kafedrası və s.) təşkili | Müntəzəm | Elm və innovasiyalar şöbəsi, fakültə dekanlıqları və kafedralar | Elm və innovasiyalar üzrə prorektorluqla birlikdə |
| 13. | ADPU struktur bölmələrinin respublika və regional səviyyəli elmi layihələr və elmi qrantlar müsabiqəsində iştirakının təmin edilməsi | Müntəzəm | Elm və innovasiyalar şöbəsi, fakültə dekanlıqları və kafedralar | Elm və innovasiyalar üzrə prorektorluqla birlikdə |
| 14. | Kafedraların Elm Fonduna, HORİZON 2020, AMEA-nın qrant resurslarına çıxışının təşkili | Müntəzəm | Elm və İnnovasiya şöbəsi | Elm və innovasiyalar üzrə prorektorluiqla |

| | | | | |
|---|---|---|---|---|
| | | | | birlikdə |
| 15. | ADPU-da kitabxana fəaliyyətinin modernləşdirilməsi, elektron kitabxana şəbəkəsinin, rəqəmsal təhsil resurslarından istifadə imkanlarının genişləndirilməsi və beynəlxalq informasiya resurslarına çıxış imkanlarının təmin edilməsi | Müntəzəm | Elm və innovasyalar şöbəsi, ADPU-nun Kitabxana İnformasiya Mərkəzi | Elm və innovasiyalar üzrə prorektorluqla birlikdə |
